# “Mədəniyyətlərarası dialoqa Azərbaycanın töhfəsi”

**Baş nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov partiyanın təşkilatçılığı ilə bu adda keçirilən tədbirdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın mədəniyyətlərarası dialoq mühitinin formalaşmasında xidmətlərinin ölçüyəgəlməz dərəcədə böyük olduğunu diqqətə çatdırdı**

**Dünən Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə “Mədəniyyətlərarası dialoqa Azərbaycanın töhfəsi” mövzusunda konfrans keçirildi.**

YAP İdarə Heyəti və Siyasi Şurasının üzvlərinin, Milli Məclisin deputatlarının, tanınmış ziyalıların və media nümayəndələrinin iştirakı ilə keçirilən konfransı giriş sözü ilə açan Baş nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov bildirdi ki, Azərbaycan xalqı xoşbəxt xalqdır ki, XXI əsrin ikinci onilliyi dövründə özünün möhtəşəm inkişaf dövrünü yaşayır: “Bir çox xalqlar özlərinin “qızıl əsri”ni bir qayda olaraq keçmiş dövrlərdə axtarırlar. Azərbaycan isə tam mübaliğəsiz deyə bilərik ki, özünün “qızıl əsri”ni indiki dövrlərdə yaşamaqdadır. Azərbaycan heç zaman indiki qədər iqtisadi inkişafa, sabitliyə, möhtəşəm uğurlara, yüksək rifaha malik olmayıb. Dövlətimizin başçısı İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan müasir narahat dünyada sabitlik adasıdır.

Eyni zamanda, bu günümüzün əsas reallıqlarından biri Azərbaycanın gənc ölkə olaraq öz ideallarını uğurla həyata keçirməsidir. Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etməsindən 28 ilə yaxın vaxt keçir. Bu dövr ərzində Azərbaycan möhtəşəm inkişaf mərhələsini yaşayıb. Reallıq ondan ibarətdir ki, Azərbaycan dünyada ən uğurlu dövlətlərdən biridir. Bunun bariz nümunəsi təkcə ölkəmizin daxili proseslərinin ürəkaçan formada cərəyan etməsindən ibarət deyil, bu, eyni zamanda, Azərbaycanın dünya birliyinin layiqli üzvü kimi təmsil olunmasındadır. Bu gün Azərbaycan dünyada gedən proseslərı sadəcə izləmir, eyni zamanda, bu proseslərin yaxın iştirakçısıdır və bir çox hallarda həmin proseslərə istiqamət verən ölkə kimi tanınır və nüfuz qazanır.”

Bildirildi ki, Azərbaycan gənc ölkə olmasına baxmayaraq, 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. Azərbaycanda çox möhtəşəm tədbirlərin keçirilməsi ölkəmizin dünya birliyinə verdiyi layiqli töhfələrin göstəricisidir.

Baş nazirin müavini, həmçinin qeyd etdi ki, Azərbaycan mədəniyyətlərarası dialoqa böyük töhfələr verən ölkədir: “Azərbaycanda multikulturalizm dövlət siyasətinin tərkib hissəsidir. İndiki halda, dünyada sivilizasiyalar arasında toqquşmaların baş verdiyi zamanda mədəniyyətlərarası dialoqa töhfələr verilməsi, multikulturalizm ideyasının təbliğ edilməsi xüsusi önəm daşıyır. Məmnunluq hissi ilə qeyd etmək lazımdır ki, dünya birliyi, beynəlxalq təşkilatlar da Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi töhfələri birmənalı şəkildə etiraf edirlər. Bunun aydın ifadələrindən biri də mütəmadi olaraq bu mövzuda nüfuzlu beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsidir. Azərbaycan dünyanın indiki narahat dövründə sivilizasiyalararası, mədəniyyətlərarası dialoqu təşkil etməklə bütün dünyaya aydın şəkildə sivilizasiyaların savaşının deyil, birliyinin zəruriliyini çatdırır. Beləliklə, Azərbaycan dövləti özünün ideoloji prioritetlərini bütün dünyaya nümayiş etdirir.”





“Məmnunluq hissi ilə Azərbaycanın sivilizasiyalararası dialoqa töhfələrində Heydər Əliyev Fondunun xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Bir neçə ildir ki, Fondun təşkilatçılığı ilə bu mövzuda diskussiyalar təşkil edilir və bundan sonra da həmin mövzunun təbliği istiqamətində töhfələri davamlı olacaq” söyləyən YAP Sədrinin müavini vurğuladı ki, Fond yarandığı vaxtdan bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir və bu sahədə ilk təşəbbüslərin və addımların atılmasında mühüm rol oynayıb.

Konfransın çox əlamətdar gün ərəfəsinə təsadüf etdiyini deyən Əli Əhmədov qeyd etdi ki, avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin müavini, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın doğum günüdür. Bu münasibətlə Mehriban xanım Əliyevanı təbrik edir, ona Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi, inkişafı yolunda atdığı addımlarda uğurlar arzulayıram.

Ə.Əhmədov bildirdi ki, Azərbaycanın ictimai-siyasi həyatında Mehriban xanımın rolu və xidmətləri böyükdür. Azərbaycanın uğurlar qazanmasında, Prezident İlham Əliyevin təkmil siyasətinin uğurla həyata keçirilməsində onun xidmətləri ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır: “Mehriban xanım Azərbaycanda birinci xanım obrazının yaranmasında və bu missiyanın uğurla həyata keçirilməsində müstəsna xidmətlər göstərib. Bu fəaliyyət yüksək standartlara uyğundur. Eyni zamanda, Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirir. Dövlət siyasətinin həyata keçirilməsində Prezident İlham Əliyevin ən yaxın silahdaşıdır. Bununla yanaşı, müasir Azərbaycanın siyasi proseslərində iştirak edən qadın obrazı da Mehriban xanımın timsalında və fəaliyyətində özünü aydın şəkildə ifadə edir. Məmnunluqla demək istəyirəm ki, YAP-ın nailiyyətlərində də Mehriban xanım Əliyevanın fəaliyyəti əhəmiyyətli rol oynayır. O, həmçinin Azərbaycanı dünyada layiqincə təmsil edir, həqiqətlərimizi təbliğ edir, bir sıra beynəlxalq təşkilatların elçisidir. Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə keçirilən musiqi yarışması, idman tədbirləri Azərbaycan reallıqlarının təbliğində əhəmiyyətli rol oynayır. Azərbaycanla bu və ya digər ölkələrin, beynəlxalq təşkilatların əlaqələrinin yüksələn xətlə inkişafında Mehriban xanım Əliyevanın xidmətləri böyükdür və bu xidmətlər daim yüksək dəyərləndirilib. Bir çox ölkələr tərəfindən ordenlərlə təltif olunması da onun xidmətlərinin nə qədər səmərəli, gərəkli və Azərbaycanın maraqlarına uyğun olmasına işıq salır. Azərbaycan həqiqətlərinin, xüsusilə Dağlıq Qarabağ probleminin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Heydər Əliyev Fondunun gördüyü işlər davamlı xarakter alır. Hesab edirəm ki, bundan sonra da Mehriban xanım Əliyeva Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verəcək.”

Baş nazirin müavini bildirdi ki, Yeni Azərbaycan Partiyası qürur hissi ilə Mehriban xanım Əliyevanın xidmətlərini təqdir edir: “Ulu öndər Heydər Əliyevin siyasəti bundan sonra da uğurla həyata keçiriləcək. Uzun illər Azərbaycan vətəndaşları bu siyasətin faydalarını görəcəklər. Azərbaycan illər keçdikcə bundan da möhtəşəm potensiala malik olacaq. Azərbaycan vətəndaşlarının daha yüksək rifahı təmin ediləcək. Azərbaycan dünya birliyində bundan sonra da öz qətiyyətli mövqeyini müdafiə edəcək. Yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövlətimizin qətiyyəti, xalqın iradəsi və beynəlxalq dəstəyin birliyi fonunda özünün ədalətli həllini tapacaq.”

“Bizi böyük gələcək gözləyir” söyləyən YAP Sədrinin müavini bildirdi ki, Azərbaycanın gələcəyi bu günümüzdən daha parlaq olacaq: “Azərbaycan düzgün yol seçib. Azərbaycanın inkişaf yolu ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycan xalqı bu gün həmin inkişaf strategiyasının, ideologiyanın faydalarını görməkdədir və bundan sonra da görəcək. Əminik ki, Azərbaycan xalqı bundan sonra da bu yola sadiq olacaq, dövlətimizin başçısı İlham Əliyevin ətrafında sıx birləşərək yeni-yeni hədəflərin gerçəkləşməsinə öz töhfələrini verəcək. Azərbaycana qara yaxmağa çalışan qüvvələrə qarşı Azərbaycan vətəndaşları birləşib layiqli cavab verəcəklər. Azərbaycanın uğurlarını həzm etməyən ünsürlərin cəhdləri həmişə olduğu kimi, bundan sonra da reallıqlarımızın qarşısında puç olacaq. Azərbaycanın inkişaf yolu hər bir ölkə vətəndaşının istəyinə uyğundur. Azərbaycan vətəndaşları gələcəkləri ilə bağlı narahat deyillər, yüksək ab-havaya malikdirlər. Ölkəmizdə mövcud sabitlik, tərəqqi bundan sonra da yüksək səviyyədə təmin ediləcək. Azərbaycanın zəngin tarixinin növbəti səhifələri uğurlarımızla daha zəngin olacaq.”

YAP İdarə Heyətinin üzvü, Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev bildirdi ki, hər bir ölkənin stabilliyi orada yaşayan insanların rifah halından asılıdır. Ulu öndər Heydər Əliyev bildirirdi ki, dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycan tolerant, multikultural cəmiyyətlərin formalaşmasına böyük töhfələr verən ölkə kimi tanınır və nüfuz qazanır. Ölkəmizdə dilindən, dinindən, irqindən asılı olmayaraq bütün vətəndaşlar eyni hüquqlara malikdirlər. Ümummilli Lider Azərbaycanın ən başlıca sərvətlərini qeyd edərkən qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən insanları xüsusi vurğulayırdı.

V.Əliyev qeyd etdi ki, təcrübə göstərir ki, sivilizasiyalar, mədəniyyətlərarası dialoq sülhə, əmin-amanlığa, birliyə, həmrəyliyə böyük töhfədir. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi tələbi ilə hakimiyyətə qayıdışından sonra bu kimi dəyərlər qorundu, inkişaf etdirildi, Azərbaycan bu gün dünyada sabitlik adası, sabitləşdirici faktor, ən əsası ən təhlükəsiz ölkə kimi tanınır.

O da bildirildi ki, müasir dövrdə qloballaşma prosesləri hər şeydən əvvəl beynəlxalq əlaqələrin gücləndirilməsi, ölkələr arasında əməkdaşlığın genişlənməsi, ayrı-ayrı xalqların mədəniyyətində ümumi elementlərin artması ilə səciyyələnir. Sivilizasiyaların dialoqunun təşkilində, inkişafında müxtəlif ölkələrin hökumət və siyasi partiya nümayəndələrinin, mədəniyyət, incəsənət və elm xadimlərinin öz düşüncələrini ortaya qoyub ümumi mövqe nümayiş etdirmələri müsbət haldır. Dinc yanaşı yaşamağın təmin edilməsinə yönələn fəaliyyətin mühüm tərkib hissəsi və şərtlərindən biri din və ümumbəşəri dəyərlər sahəsində mədəniyyətlərarası dialoqun zəruriliyidir. Bu dəyərlərin öyrənilməsi və birləşmə nöqtələrinin açıqlanması ümumi mədəniyyətlərarası dəyərlərin aşkar edilməsində mühüm rol oynaya bilər.

V.Əliyev vurğuladı ki, dövlətimizin başçısı İlham Əliyev multikulturalizmin ölkəmizdə dövlət siyasəti olduğunu önə çəkərək bildirir: “Artıq tarixi keçmişimiz də bunu diktə edir. Eyni zamanda, multikulturalizm Azərbaycanda həyat tərzidir. Biz gündəlik həyatımızda bu prinsiplər əsasında fəaliyyət göstəririk. Bu prinsiplər cəmiyyətin mütləq əksəriyyəti tərəfindən dəstəklənir, müdafiə edilir. XXI əsrdə multikulturalizmə alternativ yoxdur.” Əsas amalımızın multimədəniyyətli cəmiyyətlərin inkişafına töhfə vermək olduğunu diqqətə çatdıran ölkə Prezidenti, eyni zamanda bildirir ki, Azərbaycanda bu istiqamətdə toplanan təcrübə müsbət təcrübədir.

⇨ Davamı 7-ci səhifədə

# “Mədəniyyətlərarası dialoqa Azərbaycanın töhfəsi”

**Baş nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov partiyanın təşkilatçılığı ilə bu adda keçirilən tədbirdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın mədəniyyətlərarası dialoq mühitinin formalaşmasında xidmətlərinin ölçüyəgəlməz dərəcədə böyük olduğunu diqqətə çatdırdı**

⇨ Əvvəli 6-cı səhifədə

“Hər bir dövlətin gücü iqtisadi qüdrəti ilə olduğu kimi, milli və dini birlikləri ilə ölçülür” söyləyən V.Əliyev qeyd etdi ki, millətlərarası, dinlərarası münasibətlərin sağlam istiqamətdə inkişafında Azərbaycanın sadiq qaldığı dəyərlər həqiqətən öyrənilməyə və təbliğ olunmağa layiqdir. Azərbaycanın yerləşdiyi coğrafi məkan daim onun ölkələr, xalqlar arasında dostluq körpüsü rolunu oynamasını və bu rolu daha da möhkəmləndirməsini şərtləndirir. Təsadüfi deyil ki, ilk Avropa Oyunları, Formula-1 yarışları, IV İslam Həmrəyliyi Oyunları, Bakı Beynəlxalq Humanitar Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə Toplantısı, Qlobal Bakı Forumu və digər tədbirlər məhz Azərbaycanda keçirilir. Ölkə Prezidentinin vurğuladığı kimi, dünyanın müxtəlif yerlərində narahatlıq doğuran ədalətsizliyin daha da artdığı müasir dövrümüzdə multikulturalizm ənənələrinin gücləndirilməsi xüsusilə əhəmiyyətlidir. Azərbaycanda tolerantlıq kimi, mültikulturalizm ideyalarına sadiqlik də hər zaman güclü olub. İnsanları yaxınlaşdıran, xalqları sülh, sabitlik, mehribanlıq, qarşılıqlı hörmət naminə birləşdirən, dinlərə qarşı suni yaradılan fobiyalara qarşı mübarizədə istifadə olunan mültikulturalizmin təbliği daha vacib və aktualdır.

V.Əliyev vurğuladı ki, Heydər Əliyev Fondunun mədəniyyətlərarası dialoqa Azərbaycanın töhfələrində öz payı vardır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşan beynəlxalq tədbirlərin hər biri özlüyündə Azərbaycanı dünyada daha böyük coğrafiyada tanıdıb, dəstəklənməsinə geniş imkanlar açır.

Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı bildirdi ki, artıq XXI əsrin ikinci onilliyini yaşayırıq. Çoxəsrlik tariximiz, zəngin mədəniyyətimiz dünya birilyində layiqli yer tutmaq imkanını verir. Bu, eyni zamanda, Azərbaycanın Şərqlə Qərb arasında həyati əhəmiyyət daşıyan sivilizasiyalarası dialoqun təşəbbüsçüsü kimi çıxış etməsində əhəmiyyətli rol oynayır. Ümumdünya Mədəniyyətlərarası Dialoq, Humanitar forumların, dini sammitlərin ölkəmizdə keçirilməsi Azərbaycanın tolerantlıq, multikulturalizm təcrübəsindən qaynaqlanır. Dünyanın yeni xarici siyasətinin ölkəmizdə müzakirə olunması Azərbaycanın dünya birliyində artan rolunun və möhkəmlənən mövqeyinin göstəricisidir. Mədəniyyətlərarası dialoqun əsas məqsədi, əlbəttə, dünya xalqları arasında mehriban qonşuluq, dostluq əlaqələrini inkişaf etdirmək, qarşılıqlı anlaşma yaratmaq, dialoq əsasında münaqişələrin həllinə dəstək olmaqdır. Dünyanın bugünkü çətin durumunda xalqların bir-biri ilə sıx birləşməsi mütləqdir. Mədəniyyətlərarası dilaoqun formalaşması hər bir ölkənin tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri haqqında dolğun məlumatların əldə olunmasına geniş imkanlar açır. Multikulturalizm meyillərinin gücləndirilməsi üçün səylərin birləşdirilməsi, birgə addımların atılması vacibdir.




Qeyd olundu ki, multimədəniyyətli cəmiyyətlərin formalaşması, bu ideyaların təbliği hər bir məsuliyyətli siyasətçinin, ictimai xadimin, vətəndaşın fəaliyyətinin tərkib hissəsi olmalıdır. Bu baxımdan ara-sıra eşidilən “multikulturalizmin gələcəyi yoxdur” sözləri bütünlükdə dünyada sabitliyin təminatına mənfi təsir göstərir. Azlıq təşkil edən belə yanaşmalara baxmayaraq dünyada multikulturalizmin bir çox ünvanları vardır. Dünyanın əksər ölkələrində çoxmillətli cəmiyyətlər mövcuddur və müxtəlif dinlərin, müxtəlif xalqların birgə yaşaması zəmanənin tələbidir. Sivilizasiya bu istiqamətdə inkişaf edir, ümumbəşəri dəyərlər hər bir normal cəmiyyətdə birgəyaşayış qaydalarının əsas prinsipləri üzrə formalaşır.









“Şərqlə Qərb arasında körpü olan Azərbaycan xalqların birlik və əməkdaşlıq əlaqələri üçün də əlverişli, sülh və sabitlik məkanıdır” söyləyən N.Vəlixanlı vurğuladı ki, Azərbaycanın sivilizasiyalararası dialoqların təşkilindəki təşəbbüsləri dəstəklənir. Heydər Əliyev Fondunun Azərbaycanın zəngin tarixinin, mədəniyyətinin təbliği istiqamətində atdığı addımlar təqdirəlayiqdir.

N.Vəlixanlı əsas diqqəti son zamanlar Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən “Ədəbiyyat xəzinəsi” və “Tarixin şah əsərləri” sərgilərinə yönəltdi. Bildirdi ki, hər bir sərgi daşıdığı mahiyyət baxımından əhəmiyyətlidir. Tarixi faktlar əsasında bir daha dünya ictimaiyyətinə çatdırıldı ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbəri Rəvan Həsənov bildirdi ki, Azərbaycan beynəlxalq təşkilatlarla mədəniyyətlərarası dialoqun təşviqində və təşkilində birgə əməkdaşlıq edir. Ulu öndər Heydər Əliyev multikulturalizmi həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri kimi öndə saxladı. Hazırda bu xətt möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bildirildi ki, 2011-ci ildə ilk dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq forumunun təşkil edilməsi ideyasının mövcud reallıqlarımızın müzakirəsi üçün geniş formatın yaradılması arzumuzdan qaynaqlandığını önə çəkən dövlətimizin başçısı İlham Əliyev bu gün buna əvvəlkindən daha çox ehtiyacın olduğunu qeyd edir: “Təəssüf olsun ki, bu gün dünyada narahatlıq doğuran bəzi tendensiyalar mədəniyyətlərarası dialoqla deyil, özgələşmə ilə nəticələnir. Biz mütəmadi surətdə bunun şahidi oluruq. Dünyanın müxtəlif yerlərində münaqişə, qarşıdurma və vətəndaş müharibələrinin səbəbi müxtəlif din və etnik qrup nümayəndələrinin arasında anlaşmanın olmamasıdır. Bizim multikulturalizm siyasətimiz xalqımız tərəfindən tam dəstəklənir.” Məhz bu dəstəyin nəticəsidir ki, 2016-cı il dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə “Multikulturalizm İli”, 2017-ci il isə “İslam Həmrəyliyi İli” elan edilmiş, ölkəmiz 2015-ci ildə ilk Avropa Oyunlarına, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişdir. Cənab İlham Əliyev, eyni zamanda, bildirir ki, tarix, ənənələr və coğrafiyamız bizə onu diktə edib ki, Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkan ola bilər və bu, məhz belə də olmalıdır. Əsrlər boyu Azərbaycanda xalqlar həmişə müxtəliflik mühitində yaşayıblar. Multikulturalizm, etnik və dini müxtəliflik tariximizin bir parçası və bugünkü reallıqdır.



R.Həsənov bildirdi ki, ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması isə müasir dövrdə ölkəmizdə gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

Azərbaycanın Xalq artisti, professor Mənsum İbrahimov Azərbaycanın uğurlarından, dövlətimizin milli-mənəvi dəyərlərimizin, tariximizin, mədəniyyətimizin qorunması istiqamətində atdığı addımlardan bəhs etdi. Bildirdi ki, bu günlərdə Azərbaycanın UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi ölkəmizin bu sahədə atdığı addımlara verilən ən böyük dəyərdir.

M.İbrahimov Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətindən, onun sivilizasiyalararası dialoqa, eləcə də milli-mənəvi dəyərlərimizin qorunmasına və dünyada təbliğ olunmasına verdiyi töhfələrdən bəhs etdi. Bildirdi ki, onun təşəbbüsü ilə bəşəriyyətin şifahi və qeyri- maddi irsinə dair şah əsərləri siyahısına daxil olunan muğam sənətinin qorunub saxlanılması və təbliği istiqamətində görülən misilsiz işlər təqdirəlayiqdir. Azərbaycana məxsus muğam sənətinin qorunub saxlanılması, eyni zamanda, təbliğini nəzərdə tutan “Muğam irsi”, “Muğam dəstgahı” kimi layihələri Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın şəxsi təşəbbüs və xidmətlərinin nəticəsidir. Görülən işlərin davamı kimi maraq doğuran televiziya muğam müsabiqələri demək olar ki, dünyanın hər yerində izlənildi və tamaşaçı rəğbəti qazandı. Analoqu olmayan və Şərq xalqlarına məxsus muğamın yaşadılması üçün nəzərdə tutulan, milli köklərə bağlılığı ifadə etməklə müasirlik, yenilik aşılayan Beynəlxalq Muğam Mərkəzinin istifadəyə verilməsi də bu istiqamətdə həyata keçirilən misilsiz xidmətlərin davamıdır.

Sonda Yeni Azərbaycan Partiyasının təbrik videoçarxı təqdim olundu.

**Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
***“İki sahil”***